Bu bir xalq qəzetidi

www.adalet-az.com

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev

Gündəlik hüquq qəzeti

Qəzet 1990-cı ilin iyulundan çıxır

№ 143 (2502) 4 avqust 2006-cı il

Qiyməti 20 qəpik (1000 manat)

Maqsud İBRAHİMBƏYOV

HƏDƏFDƏ ŞƏHƏR BAŞÇISIDIR

Ölkəmizdə sarı mətbuat deyilən nəşrlər mahiyyəti etibarilə o dərəcədə mənfur və ikrahoyadıcıdır ki, kütləviliyinə baxmayaraq, xoşbəxtlikdən ictimai rəyə təsir göstərməkdə acizdir. Üç il əvvəl, 2003-cü ilin noyabrında mən "Zerkalo" və "Bakinski raboçi" qəzetlərində yazmışdım ki, mətbuatımızın əksər hissəsi daha "dördüncü hakimiyyət" deyildir və artıq çoxdan bədxah "dördüncü qəddar hakimiyyət"ə çevrilmişdir.

İndi bütün xoşagəlməz sarı mətbuat orqanlarının həmrəyləşməsi prosesi müşahidə olunur. Bir göz qırpımındaca onların hamısı hücum üçün eyni obyektlər, daxili və xarici siyasətin və iqtisadiyyatın "dərin düşünülmüş", həqiqətən, klinik təhlili üçün eyni cür mövzular tapır. Biz onların cızmaqaralarında daha nələr oxumadıq, nələrin şahidi olmadıq. İri həcmdə neft hasilatının ölkə iqtisadiyyatına, guya, mənfi təsir göstərə biləcəyi barədə sarıçalarlı jurnalistlərin "dərin fikirli mülahizələri" dərrakəli adamlara həqiqətən gülünc görünür. Yaxud, onların "daha dərin fikrinə" görə, dünyada ən bədbəxt ölkələr neft çıxarılan məmləkətlərdir, odur ki, Azərbaycanda neft heç aşkar edilməsəydi, bu onun üçün qat-qat yaxşı olardı. Buna daha nə deyəsən! Azərbaycan Respublikasının Nazirlər Kabinetinə özünün çılğın nifrəti ilə ad çıxaran bir sarı jurnalistin mülahizələri, sadəcə olaraq, özünü lağloğaz obyektinə çevirməkdir. O, təxminən belə mühakimə yürüdürdü: -hətta kirpiyə də məlumdur ki, bir litr narşərab bir litr neftdən on dəfələrlə bahadır. Onun iddiasına görə, Nazirlər Kabinetindəkilərin heç ağlına da gəlmir ki, baha başa gələn neft hasilatını azaldıb, onun əvəzində narşərab istehsalını qısa müddətdə sahmanlamaq və onu ekoloji cəhətdən zərərli neftlə eyni həcmdə xaricə satmaq daha sərfəlidir. Nəticədə ölkəyə pullar qarşısıalınmaz sel kimi axıb gəlməyə başlayar.

Yadımdadır, boru kəməri tikilməyə başlananda qəzetlərimiz yazırdı ki, gələcək neft kəməri çox böyük beynəlxalq fırıldaqdan - "əsrin fırıldağından" başqa bir şey deyildir. Bu iddianı "əsaslandırmaq" üçün iki əsas dəlil göstərilirdi:

1.Dənizdə kəşfiyyat işlərinə çəkilən xərclər əbəs yerə sərf edilir. Xəzər dənizinin təkində gilli lehmədən savayı heç nə yoxdur. Onların sözlərinə görə, kələkbazlıqla nümayiş etdirilən neft nümunələri isə quruda çıxarılmışdır.

2. Boru kəməri belə bir aşkar səbəbə görə heç vaxt tikilib başa çatdırılmayacaq: onun inşasına buraxılan pulların hamısını müəyyən adamlar elə bu yaxın bir neçə aydaca oğurlayacaqlar.

Ey banderloqlar, unutmayın ki, bütün bunları məhz siz yazmışdınız, biz hamınızı tanıyırıq, özü də adbaad tanıyırıq. Yaxşı, bəs, indi niyə etiraf etmirsiniz ki, onda gözünüzün içinədək yalan danışırdınız? Dəridən-qabıqdan çıxıb, möhtəşəm, ölkə üçün həyati əhəmiyyətli layihənin baş tutmamasına çalışaraq, birağızdan gopa basıb, iftiralar yağdırmağınız müqabilində o vaxt sizə kimin nə qədər haqq ödədiyini deməyin. Heç lazım da deyil. Bunu tələb edən də yoxdur. Biz, onsuz da, bilirik, kim idi sizə bu pulları verənlər. Amma boynunuza almalısınız ki, ardı-arası kəsilmədən yalan danışırdınız. Bax, onda ölkə əhalisinin düşüncəli hissəsi, bəlkə də, inanar ki, siz, hər halda, təlim görmüş meymunabənzər məxluqlar yox, ikinci dərəcəli olsa da, adamsınız.

Ah, o günlər sarı mətbuat və siyasət aləmində əlayağa dolaşan qeyri törtöküntülər üçün necə də gözəl əyyam idi. Onda Qərb hələ sadəlövhcəsinə inanırdı ki, bələlərini qrantlarla bəsləməklə demokratiyanın ixracında uğurlar qazanmaq olar. Lakin praqmatik amerikalıların simasında Qərb çox tezliklə gördü ki, bu satqın, miskin adamcığazların fəaliyyətinə rəğmən, Azərbaycanda demokratik proses inkişaf edir. Bunu da yəqin etdi ki, onların vəcsiz səyləri və acgözlüyü sayəsində "söz azadlığı" anlayışı artıq çoxdan "təhqir etmək azadlığı"nın və ya "cəzasız xuliqanlıq etmək azadlığı"nın sinonimlərinə çevrilmişdir. Qiyama təhrik olunmuş əsil-nəcabətsiz kölələrin davranışı Birləşmiş Ştatlara lap bu yaxınlarda əyani surətdə nümayiş etdirildi. Daim xeyirxah olan öz sahibi bir qab horranı qabağından çəkən kimi pis iy buraxmaq və onun əl-qolunu dişləmək bu kölələrə xas haldır. Sözümə qüvvət olaraq, Prezident Corc Buşu misal göstərə bilərəm. Siyasətdə əl-ayağa dolaşan tör-töküntülərimiz onu bütün bu illər ərzində xeyirxah doğma ata və müdrik demokratizator adlandırır və Bakıda nümayişlərə, çoxlarına təəccüblü görünsə də, onun portreti ilə çıxırdılar. Elə bu yaxınlarda, amerikalılar tulapayını dayandıran kimi, Amerika Birləşmiş Ştatlarının Prezidenti Bakının sarı mətbuatının səhifələrində, faşist, yaramaz və planetin baş dələduzu kimi lənətləndi.

İndi böhtanların əsas obyekti Bakının başçısı Hacıbala Abutalıbov olmuşdur. Sarı qəzetlər və onlarla əlbir olan digərləri amansızcasına və alçaqcasına atılan böhtanlarla paytaxtımızın çiçəklənməsi üçün bu qədər yaxşı işlər görən gözəl ziyalı insanı axı nə üçün bütün həmvətənlərimizin gözləri qarşısında hər gün əl-ələ verib təqib edirlər? Onlar kimlərin sifarişini belə səylə yerinə yetirirlər?

Abutalıbov Bakıda bütün yaşıllıqlara qənim kəsilib! Hər şeyə, hər şeyə! Bir neçə il əvvəl mütəxəssislərin - nəbatatçıların təkidi ilə şəhərdəki bütün qocalmış ağacların qurumuş budaqları kəsilməyə başlandıqda banderloqlar nəfəs dərmədən haray-həşir saldılar. Banderloqlar sürüsü bir-birinin səsini kəsə-kəsə yaxından ilk dəfə uşaqlığında, həyətdəki ayaqyoluna gedən paslanmış boru deşilərək, fışqırtı ilə fəvvarə vurduqda görüb. Bu "fəvvarə"yə görə bütün günü su verilməsini dayandırmış və həyətdəki yeganə ayaqyolunu bağlamışdılar. Onun sönük-ölgün həyatındakı bu "parlaq" hadisə gənc banderloqun həmişəlik yadında qalmışdır. O, məqalələrində Abutalıbovu ideal "vətəndaş" mövqeyindən ən təhqiramiz ifadələrlə tənqid edirdi. Onun fikrincə, əslində, gərəksiz qurğular olan fəvvarələr bakılılar üçün açıq-aşkar bədbəxtlikdir, çünki Bakının su kəmərindəki su onlara sərf edilir, nəticədə "suya həsrət" şəhərlilər təsvirəgəlməz əziyyət çəkirlər. Onu başa saldılar ki, fəvvarə hovuz kimi qapalı sistem, habelə su kəmərindən ayrıca olaraq, təzyiq altında suyun daimi qurculuğunu başlıca iş sayır və özünün bütün qüvvə və vaxtını bu işə sərf edirdi. Buna baxmayaraq, o, Suraxanı vahəsi fenomenini ancaq özünə xas uzaqgörənliklə, bəsirətlə, hövsələ və təfərrüatı ilə öyrənməyə imkan tapdı. Heydər Əliyev ona çoxdan göz qoyurdu. Hacıbala Abutalıbov Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı vəzifəsinə birdən-birə qoyulmadı. Suraxanıdan sonra ilyarım Baş nazirin müavini vəzifəsində çalışdı, bu vəzifədə şəhərin problemləri ilə tanış oldu. O, yalnız bundan sonra şəhər rəisi təyin edildi. Prezident xeyirdua olaraq ona geniş səlahiyyət verdi. Bu istedadlı, fantastik enerjili insan dahi öndərin xeyir-duası sayəsində xariqələr yaratdı. O, korrupsiyaya qurşanmış gözüdoymaz məmurların güclü təzyiqinə məhəl qoymayaraq, alverçiləri şəhərin küçə və meydanlarından çıxarıb, bazar və köşklərə yönəltdi, qısa zaman kəsiyində Bakı ölkəmizin paytaxtı adlanmağa layiq şəhərə çevrildi.

Litva Prezidenti Valdas Adamkus bu yaxınlarda Bakıya gəlmişdi. Onu geniştərkibli nümayəndə heyəti müşayiət edirdi. Litvalılar bilirlər ki, şəhərsalma necə olmalıdır, iri Avropa şəhəri necə görünməlidir. Qonaqlar bir neçə gün Bakını gəzib-dolaşdıqdan və öyrəndikdən sonra dedilər ki, şəhərsalma sahəsində onların bizdən görüb-götürməli olduqları cəhətlər var. Nə gizlədim, bu sözləri eşitdikdə qəlbim dağa döndü. Onu da dedilər ki, bu məqsədlə öz mütəxəssislərini bizim gözəl şəhərimizə ezam edəcəklər. Axı, belə yüksək səviyyədə bu cür yüksək bəyanatları nəzakət xətrinə etmirlər. Üstəlik, belə bəyanatlardan sonra mütəxəssislər göndərmirlər.

Elə bu yaxınlarda, cari ilin martında Bakı "2006-2007-ci illərdə Şərqi Avropanın gələcək investisiyalar şəhəri" adına layiq görüldü.

Son günlər Hacıbala Abutalbov barəsində böhtanlar ən yüksək həddə çatmış və qəti olaraq azğın xarakter almışdır. Sarı-sarımtıl qəzetlər böhtanlara gen-bol yer verir, merin başına dözülməz təhqirlər yağdırırlar. Halbuki belə hədyanalara görə istənilən ölkənin qanunları ilə müəlliflər təxirə salınmadan ən sərt cəzaya məhkum olunmalıdır. Banderloqlar merin evinə zəng vurur, onun özünü də, ailə üzvlərini də ədəbsiz sözlərlə təhqir edirlər. Şübhəsiz ki, bütün bu azğınlığın, tərbiyəsizliyin arxasında harın oliqarxlarımızdan kimlərsə durur. Oxucunun soruşmağa haqqı var: şəhər rəisinə bu nifrəti, kin-küdurəti nə ilə izah etmək olar?

Bir neçə səbəblə. Şəhər rəisinin kabinetində, demək olar, müntəzəm surətdə gedən məhrəmanə söhbətlərdən xəbər tutsa, oxucuya, bəlkə də, hər şey daha aydın olar. Məsələn, Abutalıbovla iri, çox nüfuzlu bir oliqarx arasında bu yaxınlarda olmuş söhbətdən. Bu, elə bir oliqarxdır ki, onun malik olduğu hökmü professor və şəhər rəisi Abutalıbov heç arzulaya da bilməz.

Oliqarx dostcasına və səmimi söhbət əsnasında ona deyir:

-Yeri gəlmişkən, sizə bir dənə də balaca işim düşüb. Demək olar, şəxsi xarakterli işdir. Siz ona necə baxacaqsınız?

-Diqqətlə və məmnuniyyətlə. Mən sizi dinləyirəm, - deyə Abutalıbov cavab verir.

-İstəyirəm ev tikdirəm. Yalnız özüm və ailəm üçün. Arxitektura planı artıq hazırdır. Əlbəttə, istərdim ki, bu torpaq sahəsində mühafizə üçün də, xidmətçilər üçün də evciklər olsun, sürücülərin istirahət otaqları olan qarajlar tikilsin. Bağ üçün Türkiyədə, Şamaxı və Lənkəranda ağaclar sifariş vermişəm. Bağ-bağata şəxsən öz əllərimlə qulluq edəcəyəm. Arzum bir növ kənddə, amma şəhərin mərkəzində yaşamaqdır. İstəyirəm ki, oradan dəniz də görünsün. Siz dənizə açılan mənzərəyə necə baxırsınız?

-Çox yaxşı. Hətta fəvvarələrdən də yaxşı baxıram.

-Şəhərin Dağüstü hissəsində balaca bir yeri gözaltılamışam. O yer Milli Təhlükəsizlik Nazirliyinin binasından bir qədər aşağıda və şimal tərəfdədir. Bu da plan. Bilirsinizmi, indi elə zəmanədir ki, gərək biz hamımız özümüzü təvazökar aparaq. Mənə çox yox, ikicə hektar sahə lazımdır. Əzizim Hacıbala müəllim, olmaya, çoxdur?

Abutalıbov evlərin, evciklərin və bağ-bağatın nə qədər yer tutacağını beyninində götür-qoy edərək cavab verdi:

-İki hektar. Gərək ki, kifayət edər. Zənnimcə, iş, istirahət və qonaq-qara qəbul etmək üçün gözəl bir guşə alınar.

-Sənədləri nə vaxt gəlib ala bilərəm?

-Özünüzə əziyyət verməyin, canım. Sənədləri sizə xüsusi poçtla göndərəcəyəm, - deyib Abutalıbov fikrə getdi. - Birisi gün sizi qane edirmi? Sənədləri sizə elə bu gün verərdim. Əfsus ki, mümkün deyil. Çünki Prezident səfərdədir. O, sabah, günortadan sonra qayıdacaq. Sabah axşam mən onun razılığını alacağam, ertəsi gün isə sənədləri sizə göndərərəm.

Müsahib lazımi sözləri dərhal tapa bilmədi.

-Axı, torpaq sahələrinin verilməsi məsələsi büsbütün sizin səlahiyyətinizdədir. Prezidentə niyə zəng vurmalısınız?

Abutalıbov üzr istəyirmiş kimi izah elədi:

-Belə hallarda mən həmişə möhtərəm Prezidentə zəng vururam. Bilirsinizmi, bu, mənim üçün bir növ xalq adətidir.

-Yox, mən fikrimi dəyişdim. Heç bir torpaq-zad istəmirəm. Allah xatirinə, Prezidentə bu barədə zəng vurmayın, - deyib oliqarx masanın üstünə sərilmiş torpaq sahəsinin planını götürdü.

-Əgər fikrinizdən daşınırsınızsa, zəng vurmağa ehtiyac yoxdur, - deyə Abutalıbov izah etdi.

Oliqarx gözlərini şəhər rəisinə zilləyərək, zəhmli səslə soruşdu:

-Mən buna əmin ola bilərəmmi?

-Yüz faiz. Cənab Prezidenti boş yerə narahat etməyəcəyəm ki, - deyə Abutalıbov müsahibini əmin etdi və qapını tanınmış şəxsin arxasınca örtdü.

O, şəhərin əksər hissəsini məngirləməyə can atan varlı, nüfuzlu adamlarla belə söhbətlər barədə, həqiqətən, danışmır. Amma onların sözünü hər dəfə yerə salır. Onlar isə buna görə şəhər rəisinə ən son nifrətlə cavab verirlər. Bu professor Abutalıbov ki var, o, şəhəri qamarlamaq və tarac etmək istəyənlər üçün qətiyyən sərfəli adam deyildir. O, zəhmətsiz qazanılmış var-dövlət həvəskarları üçün bütün bənd-bərələri, əl yerlərini bərk-bərk bağlamışdır. Belə şeyləri isə bağışlamırlar. Abutalıbov bir çox prinsipsiz, lakin varlı-hallı ixtiyar sahiblərinə, qənimətçilərə qənim kəsilmişdir, onlara əməllicə mane olur. Onun başının üstündən iş görmək mümkünsüzdür. Bu qənimətçilər isə bunun cavabında onu nəyin bahasına olursa-olsun, eləcə də təpədən-dırnağadək satın aldıqları vicdansız sarı mətbuatın köməyi ilə aradan götürməyə çalışırlar.

Sonda oxuculara şəxsi xahişlə müraciət etmək istəyirəm.

Əziz dostlar! Hacıbala Abutalıbov şəhərimiz üçün, deməli, hər birimiz üçün faydalı çox iş görür. Gəlin, bu nadir, istedadlı şəhər rəisinə, fikrən də olsa, möhkəm cansağlığı və yeni-yeni uğurlar arzulayaq. Bizim ona yeganə köməyimiz bu ola bilər. Lakin inanıram ki, hətta fikrən söylənmiş xoş sözlər mənfur qəzetlərin və anonim banderloqların şəhər rəisinin ev telefonuna zənglərlə hər gün ona vurduqları mənəvi zərəri müəyyən dərəcədə yüngülləşdirə bilər

"Bakinski raboçi"
3 avqust 2006

Qrant torbasının ağzı bağlanandan sonra banderloqlara yerli oliqarxlar öz nimçələrini təklif etdilər. Oxucu soruşa bilər, hər şeylə yanaşı, özünün mətbuatına da malik olmaq bəzi oliqarxlarımızın nəyinə gərəkdir? Axı, onların hər şeyi var - hakimiyyəti, pulu, onlarca evi, ən dəbdəbəli maşınları, yaxtaları, təyyarələri və hətta ekzotik dənizlərdə adaları. Mətbuat onlara, bəlkə, ona görə lazımdır ki, oliqarxlardan kiminsə bu gün malik olduğu hakimiyyət onlara azlıq edir? Bununla əlaqədar Yaponiya tarixindən bir əhvalat yadıma düşdü. Qədim paytaxt Kiotonun yaxınlığında ondan da qədim kiçik bir kilsə var. Rəvayətə görə, bu kilsə onu ziyarət edənlərin ən cəsarətli, ən əlçatmaz arzularını həyata keçirir. Əsrlər boyu Yaponiyanın bütün adalarından zəvvarlar öz məhrəm arzusunun həyata keçirilməsi xahişinin yazılmış olduğu balaca bir parçanı kilsənin divarına yapışdırmaq üçün buraya axın-axın gəlirmişlər. Günlərin bir günü ölkədə ən hörmətli samuraylardan biri İmperator sarayına təşrif gətirir və imperatora deyir ki, dünən axşam baş nazir kilsəyə gələrək, öz məhrəm arzusunun çin olması xahişinin yazıldığı balaca bir parçanı onun divarına yapışdırdı. Samuray gedəndən sonra imperator düşüncələrə qərq oldu. Düşündü ki, aydın deyil bu nə məsələdir, axı, mənim baş nazirim dəbdəbəli sarayda yaşayır, binəzir gözəl arvadı var, ölkənin ən yaxşı rəssamları bu qadının şəklini çəkmək şərəfinə nail olmağa çalışırlar, baş nazirin gözəl-göyçək, sağlam uşaqları - iki oğlu və iki qızı var. Onun özü ali ordenlərlə və qızıl qılıncla təltif olunub və hər gün səhər bir süfrə başında imperatorla birlikdə yemək yeyir. Baş nazir imperatordan sonra dövlətdə ikinci adamdır. Maraqlıdır, görəsən, onun mənə məlum olmayan hansı məhrəm arzusu var? İmperator bu barədə bütün gecəni düşünüb-daşındı, səhər isə baş nazirin boynunu vurmağı əmr etdi.

Bu gün sarı mətbuatımız bütün əndazəni oliqarxların səxavətlə əta etdikləri pullar hesabına aşmışlar. Ölkənin ən layiqli adamlarına, aparıcı siyasətçilərə, ədəbiyyat və incəsənət xadimlərinə, öz vətəninə fayda gətirən və ya fayda gətirməyə çalışan hər bir insana qara yaxılır. Dövlətə, sözsüz gərək olan təşəbbüslər lağa qoyulur və ələ salınır. Bununla bərabər, bizə düşmən ölkələrin liderlərinin Azərbaycan üçün təhqiramiz sözləri kütləvi surətdə yayılır.

Dövlətimizin varlığının guya perspektivsizliyi barədə fikirlər əhaliyə təlqin edilir.

bərkdən çığırırdılar. Bütün sarı qəzetlərin səhifələrində Abutalıbov Bakının qatı düşməni, bağ və yaşıllıqların məkrli qırıcısı kimi xarakterizə olunurdu. Bu haray-həşir yazadək, kəsilmiş quru budaqların yerində yamyaşıl fidan zoğlar əmələ gələnə qədər davam etdirildi. Bunu onların heç biri indiyəcən görmür. Heç olmasa bir banderloq üzr istəmək yox, səhvini etiraf etsin, sadəcə, desin ki, ağaclar məhv olmadı, əksinə, daha qol-budaqlı oldu! Susurlar bu banderloqlar.

"Nəbatat" kampaniyasından sonra kütləvi "palma" şivəni başlandı. Banderloqlar hay-haray saldılar ki, Abutalıbov ağına-bozuna baxmadan, harada gəldi çinar və iydə ağacları yox, palmalar əkdirir, məqsədi də şəhərin milli koloritini bu üsulla qara günə qoymaqdır. Guya ki, palmaların çoxluğu sayəsində Bakının siması tanınmaz dərəcədə dəyişəcək və bu, nəsillərin varisliyinə mənfi təsir göstərəcəkdir. Ta başqa mövzuya keçmək barədə əmr alana qədər uzun müddət, fasiləsiz olaraq şivən qopardılar. Həqiqətən, Abutalıbov Bakıda çoxlu palma əkdirmişdir, çünki bu ağaclar bizim şıltaq iqlim şəraitimizə dözümlüdür. Palmalar yaxşı bitdi və indi gözəl sahil şəhərinin sığal-yarağı onların sayəsində daha da artmışdır. İndi banderloqlar və onların balaları da, onlara züy tutanlar da adamlara yandı-qındı vermək üçün könüloxşar palmaların fonunda şəkil çəkdirirlər.

Bəs fəvvarələr?! "Abutalıbov fəvvarələri"nə görə nə qədər isterik dedi-qodu oldu. Sadaladığım bütün bu rəzil qəzetciklərdə hər növ səfehlərin cızma-qaraları dərc edildi. Bu yazılarda şəhər rəisi paytaxtın su təchizatının düşməni adlandırılırdı. İddia edilirdi ki, cənub şəhərində fəvvarə bolluğu zövqsüzlük əlamətidir və dövlətin maliyyə vəsaitinin cinayətkarcasına sağa-sola səpələnməsi deməkdir. Şəhər rəisini dayanmağa və fəvvarələr yaratmaqdansa, küçələri təmir etdirməyə və onların alayarımçıq işıqlandırılmasına son qoymağa çağırırdılar. Abutalıbov bütün bunları dinməz-söyləməz dinləyir və fəvvarələr quraşdırılması işini davam etdirirdi. Bununla bərabər, o, şəhər küçələrini təmir etdirir və yollar çəkdirirdi. İndi nəqliyyat vasitələrinin gündən-günə artdığı və onların hərəkətinin çətinləşdiyi şəhər üçün körpü yollar və körpülər yüksək sürətlə tikilir. İndi gecələr şəhərin işığı göz qamaşdırır, paytaxt elə işıqlandırılır ki, bu, bütün banderloqların öz banderloq ata və babaları ilə birlikdə heç yuxusuna da girə bilməzdi.

"Fəvvarə" kampaniyası ilə əlaqədar məni bir banderloq jurnalist məəttəl qoydu. Onun barəsində dəqiq bilirəm ki, Qantəpə küçəsində, pəncərəsi və ayaqyolu olmayan qaranlıq bir mənzildə doğulub böyümüşdür. O biçarə fəvvarəni dövranını təmin edən elektrik nasosu ilə işləyir. Başabəla jurnalist bunu eşitdikdə təəccübdən ağzı açıla qaldı. Bəli, təəccüblənməyinə təəccübləndi, amma, nə olsun, öz dediyindən dönmədi ki dönmədi. Nə etmək olar, fəvvarələr banderloqların xoşuna gəlmir!

İndi onlar, banderloqların hərəkət etdikləri kimi, fəvvarələri unudublar. Nə bilmək olar, bəlkə də, istirahət günlərində parklara və dənizkənarı bulvara uşaqları ilə birlikdə axın-axın gedən bakılıların şən çöhrələrini gördükdə bu banderloqların küt beyinlərində hansısa qara-qura fikirlər yaranır. Camaat oraya təmiz havada rəngarəng və əzəmətli fəvvarələrin gözəl mənzərəsinin seyrinə dalmağa gedir? Halbuki o vaxt bu yalançı sarı qəzetlərdə bununla əlaqədar Abutalıbovun ünvanına nə qədər təhqiramiz ifadələr yağdırırdılar. Tənqid yox, məhz iyrənc, çirkin təhqirlər. Adamın qanını nə qədər qaraltmışdılar! Halbuki bütün bunlar adama ağır gəlir, adama pis təsir göstərir. Məəttələm, iliyinə qədər ziyalı bir insan olan professor Hacıbala Abutalıbov peşəkar satqın əclafların hər tərəfdən fasiləsiz kütləvi böhtanlarına bu qədər vaxt ərzində necə dözmüşdür? Bu cəsur, ləyaqətli adamda belə tükənməz qüvvə haradandır? Başa düşə bilmirəm, bütün bu məkrli xuliqanlığa görə banderloqlar nə üçün cəzasız qalmışlar, nə üçün bu biabırçılığa görə onlara "gözün üstündə qaşın var" deyən olmayıb?!

Mən Hacıbala Abutalıbovla çoxdan, on il ərzində Suraxanı rayonundan Milli Məclisin deputatı olduğum vaxtdan tanışam. Həmin illərdə o, Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı idi. Onun fəaliyyəti sayəsində o vaxtlar bu rayon səliqə-sahmanlı vahəni xatırladırdı. Bu rayon o illərdə başdan-başa zibilliyə çevrilən və iylənmiş ətin üfunətinin ətrafı basdığı Bakı şəhərində yeganə vahə idi. İndi inanmaq çətindir, amma o vaxtlar Bakıda alverçilər meydan sulayırdılar. Malqaranı elə şəhərin küçələrindəcə kəsir, səkilərə tökülən qanı isə şlanqlarla yuyurdular. Bəzən də heç yumurdular. Şəhərlilərin bazar-dükana getmələrinə ehtiyac yox idi, lazım olan hər şey evin yanında, küçələrdə satılırdı. Adama elə gəlirdi ki, həmişə belə də olacaq. Şəhər hakimiyyəti küçələrdəki yüzlərlə ət köşkündən birini belə yığışdırmaqda aciz idi. Çünki hər bir yüksəkgəlirli "ticarət" obyektinin arxasında hansısa yüksəkvəzifəli "dövlət" xadimi dururdu. Suraxanı rayonundan savayı, Bakının hər yerində belə idi. Bu, ən yeni tariximizin müharibədən sonrakı ağır dövrü idi. Dövlət yenicə formalaşmağa başlamışdı. O vaxt söhbət müstəqil Azərbaycanın mövcudluğundan gedirdi. Müstəqil ölkəmizin dünyanın siyasi xəritəsində qalması bütünlüklə və tamamilə Prezident Heydər Əliyevin xidmətidir. O illərdə Heydər Əliyev dövlət